**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№298/1** **23 fevral 2018-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat barədə**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə"yə müvafiq olaraq və Auditorlar Palatasının 2018-ci il üzrə iş planının 8.2-ci "Auditorlar Palatasının struktur bölmələrinin 2017-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabatlarının hazırlanması" və 8.4-cü "Auditorlar Palatasının 2017-ci il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması" bəndlərinin icrası ilə əlaqadar sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və sədrin müşaviri F.Qarayev tərəfindən hazırlanmış "Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabatı" müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə fəaliyyətinin yekunlarına dair hazırlanmış hesabat" bəyənilsin (əlavə olunur) və Auditorlar Palatasının fəaliyyəti yüksək qiymətləndirilsin.
2. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, cari ilin 15 mart tarixinədək "Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat"ın icmalının hazırlanıb Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına və digər aidiyyatı qurumlara göndərilməsini təmin etsinlər.
3. Sədrin müşaviri F.Qarayevə, Beynəlxalq əlaqələr şöbəsinin müdiri T.Əmiraslanova və Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, cari ilin 15 aprel tarixinədək "Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat"ın icmalının Azərbaycan, ingilis və rus dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini və Auditorlar Palatasının həqiqi üzvü olduğu Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) göndərilməsini təmin etsinlər.
4. Bu hesabatın ictimaiyyətə açıqlanması məqsədilə KİV-də məqalə və şərhlərin dərc etdirilməsi məqsədəmüvafiq hesab edilsin.
5. Sədrin müşaviri F.Qarayevə və Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, üç gün müddətində bu qərarın və hesabatın mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.
6. Auditorlar Palatasının rəhbərliyinə tövsiyə olunsun ki, Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə fəaliyyətinin yekunlarına dair mətbuat konfransının keçirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**